**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclasının**

**P R O T O K O L U № 3**

**Naxçıvan şəhəri** **13 avqust 2024-cü il**

13 avqust 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin növbəti iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin üzvü Tofiq Babayev

**İclasda iştirak etdilər:**

1. Həsənova Esmira Həsən qızı -Komitənin sədr müavini
2. Bağırsoylu Hüseyn Qədirulla oğlu -Komitənin üzvü
3. Quluyeva Sevda Rüstəm qızı -Komitənin üzvü
4. Məmmədov Nazim Məmməd oğlu -Komitənin üzvü
5. Vəliyev Musa Məmməd oğlu -Komitənin üzvü

**Dəvət olunanlar:**

1. Nihad Möhbalıyev - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri
2. Ramil Nəbiyev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
3. Sahir Rüstəmov - Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri
4. Həsən İsmayılov - Naxçıvan Muxtar Respublikasının maliyyə naziri
5. Fərid Bağırzadə - Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
6. Yeganə Məmmədova - Ali Məclisin deputatı, Ali Məclisin Sosial siyasət komitəsinin sədri
7. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini

8. Firudin Məmmədov - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin Büdcə nəzarəti sektorunun müdiri

9. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri

10. Mübariz Bayramov - Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekoloji məsələlər sektorunun müdiri

**İclasın gündəliyi:**

**1. “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu**

**2. “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu**

İclası komitənin sədri İsa İsayev açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin 7 üzvü, Ali Məclisin Sosial siyasət komitəsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadi məsələlər və Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbələrinin müdirləri, Aparatın digər əməkdaşları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri və müvafiq şöbəsinin əməkdaşı, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri və Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini iştirak edirlər.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

İsa İsayev iclas iştirakçılarına gündəlikdə duran məsələlərlə bağlı məlumat verdi.

Komitə sədri bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinə daxil olmuş “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunlarında dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanun layihələri Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin üçüncü abzasına və “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim olunmuşdur.

İsa İsayev deputatların məlumatlandırılması məqsədilə müvafiq Qanun layihələrinin Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsi tərəfindən bütün deputatların fərdi e-mail ünvanlarına göndərildiyini bildirdi.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrasında gəlirlərin nəzərdə tutulandan artıq icra olunması, xərclər üzrə tələb olunan yerdəyişmə və əlavə vəsaitlərin həcmi Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinə yenidən baxılması zərurətini yaratmışdır.

"Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun layihəsi ilə bağlı məlumat verməsi üçün söz Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılova verildi.

**Çıxışda:** Həsən İsmayılov bildirdi ki, 2024-cü ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri 112,3 milyon manat, xərcləri isə 191,7 milyon manat məbləğində icra edilmişdir.

Naxçıvan Muxtar Respublikasının 2024-cü il dürüstləşdirilmiş büdcəsinin gəlirləri 190 milyon 484 min 816 manat proqnozlaşdırılır ki, bu məbləğ 2024-cü ilin təsdiq olunmuş büdcə gəlirləri ilə müqayisədə 17 milyon 379 min 816 manat və ya 10 faiz çoxdur.

Dürüstləşdirilmiş büdcə üzrə gəlirlərin 174 milyon 15 min manatı və ya 91,4 faizi Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların payına düşür ki, bu məbləğ 2024-cü ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 10 milyon manat və ya 6,1 faiz çox planlaşdırılır.

Gəlirlər üzrə proqnozun yol vergisi üzrə 12 milyon 816 manatı və ya 6,3 faizi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin xətti ilə daxilolmaların payına düşməklə 2024-cü ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 7 milyon 816 manat və ya 2,4 dəfə artıq nəzərdə tutulmuşdur.

2024-cü ildə gəlirlər üzrə proqnozun 3 milyon 709 min manatı və ya 1,9 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların payına düşür.

2024-cü il dürüstləşdirilmiş büdcə gəlirlərinin mərkəzləşdirilmiş gəlirləri 147 milyon 726 min 616 manat, yerli gəlirləri 42 milyon 758 min 200 manat məbləğində proqnozlaşdırılır.

Naxçıvan Muxtar Respublikasının 2024-cü ilin büdcəsinin dürüstləşdirilmiş xərcləri 539 milyon 265 min manat məbləğində proqnozlaşdırılır ki, bu məbləğ cari ilin büdcə xərcləri ilə müqayisədə 22 milyon 900 min manat və ya 4,4 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsində Azərbaycan Respublikasının mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya məbləğinin 6 milyon 800 min manat və ya 2 faiz azaldılaraq 336 milyon 460 min manat müəyyən edilməsi nəzərdə tutulmuşdur.

Dürüstləşdirilmiş büdcə xərclərinin 457 milyon 89 min 14 manatı, yaxud 84,8 faizi cari xərclər üzrə, 82 milyon 175 min 986 manatı və ya 15,2 faizi isə əsaslı xərclər üzrə nəzərdə tutulmuşdur.

İqtisadi təsnifata uyğun olaraq 2024-cü ilin dürüstləşdirilmiş büdcəsində əməyin ödənişinə büdcə xərclərinin 59,9 faizi həcmində və ya 322 milyon 825 min 883 manat, malların, iş və xidmətlərin satın alınmasına büdcə xərclərinin 14,3 faizi həcmində və ya 77 milyon 84 min 989 manat, subsidiyaların ödənilməsinə büdcə xərclərinin 4 faizi həcmində və ya 21 milyon 865 min 414 manat, qrantlar və digər ödənişlərə büdcə xərclərinin 5,4 faizi həcmində və ya 29 milyon 58 min 943 manat, sosial ödənişlərə büdcə xərclərinin 1,2 faizi həcmində və ya 6 milyon 253 min 785 manat, qeyri-maliyyə aktivlərinin alınmasına isə büdcə xərclərinin 15,2 faizi həcmində və ya 82 milyon 175 min 986 manat vəsait ayrılması nəzərdə tutulmuşdur.

2024-cü il Naxçıvan Muxtar Respublikasının dürüstləşdirilmiş büdcəsində sosialyönümlü xərclərin xüsusi çəkisi 63,2 faiz səviyyəsində, yəni 340 milyon 653 min 55 manat məbləğdə nəzərdə tutulur.

"İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı məlumat verməsi üçün söz Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Fərid Bağırzadəyə verildi.

**Çıxışda:** Fərid Bağırzadə bildirdi ki, 2024-cü il 01 avqust tarixinə İşsizlikdən sığorta fondunun büdcəsinin gəlirləri 2 milyon 355 min 675 manat məbləğində olmuşdur. 2024-cü il 01 avqust tarixinə İşsizlikdən sığorta fondunun büdcəsindən "İşsizliyə görə sığorta ödənişləri" üzrə xərclər 256 min 814 manat, "Peşə hazırlığı və əlavə təhsilin təşkili" üzrə xərclər 216 min 739 manat, "Haqqı ödənilən ictimai işlərin təşkili" üzrə xərclər 307 min 375 manat, "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi" üzrə xərclər 38 min 507 manat, "Dövlət Məşğulluq Agentliyinin aparatının, onun yerli orqanlarının, habelə tabeliyindəki digər qurumların saxlanılması" üzrə xərclər 1 milyon 757 min 844 manat olmaqla, ümumilikdə, İşsizlikdən sığorta fondunun büdcəsinin xərcləri 2 milyon 577 min 280 manat təşkil etmişdir.

Qeyd etdi ki, cari ilin 7 ayı ərzində daxilolmalarda müşahidə olunan artım nəzərə alınaraq layihədə Qanunun 2.1-ci maddəsi üzrə vəsaitin artırılması, müvafiq olaraq 3.1-ci maddəsində nəzərdə tutulan "İşsizliyə görə sığorta ödənişləri" xərc istiqaməti üzrə dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində iş yerini itirmiş vətəndaşların müraciətlərinin çoxluğunu nəzərə alaraq vəsaitin artırılması, 3.2-ci maddəsində nəzərdə tutulan "Peşə hazırlığı və əlavə təhsilin təşkili" xərc istiqaməti üzrə əmək bazarının tələbləri nəzərə alınaraq azaldılması, 3.3-cü maddəsində qeyd olunan "Əmək yarmarkalarının təşkili və peşəyönümünə dair məsləhət xidmətlərinin göstərilməsi" xərc istiqaməti üzrə tədbirlər daxili imkanlar hesabına təşkil edildiyindən vəsaitin azaldılması, 3.4-cü maddəsində qeyd olunan "Haqqı ödənilən ictimai işlərin təşkili" xərc istiqaməti üzrə haqqı ödənilən ictimai işlərə cəlb olunmaq üçün müraciət edən vətəndaşların çoxluğu nəzərə alınaraq artırılması, 3.5-ci maddəsində qeyd olunan "Özünüməşğulluq tədbirlərinin təşkili" xərc istiqaməti üzrə cari ildə müraciət edən vətəndaşlardan 1000 nəfərinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi

Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən əmlaklarla təmin olunacağını nəzərə alaraq azaldılması, 3.6-cı maddəsində qeyd olunan “Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi” xərc istiqaməti üzrə qanunvericilikdə edilmiş son dəyişikliklərə əsasən proqramın əhatə dairəsinin genişlənməsini nəzərə alaraq artırılması zərurəti yaranmışdır.

Gündəlikdə duran məsələlər ətrafında aparılan müzakirələrdə Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsində artım olmasını muxtar respublikada sosial-iqtisadi inkişafa yönəldilmiş tədbirlərin uğurlu nəticəsi kimi dəyərləndirdi.

Nihad Möhbalıyev büdcədə təhsil və ətraf mühitin mühafizəsi sahələri üzrə xərclərin, Ali Məclisin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova isə subsidiyaların azaldılmasının səbəbləri barədə suallarını səsləndirdilər.

Maliyyə naziri Həsən İsmayılov və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Aparatının rəhbəri Sahir Rüstəmov səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətirdilər.

**Çıxışda:** Komitə sədri İsa İsayev bildirdi ki, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” və “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanun layihələri “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Qeyd etdi ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən komitə müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir. Müzakirə olunan məsələ ilə əlaqədar İqtisadi siyasət komitəsinin qərarı hazırlanmışdır.

Sonda İsa İsayev altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin qərarını oxudu və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun müvafiq maddəsi nəzərə alınaraq qanun layihələrinin Ali Məclisin müzakirəsinə çıxarılması tövsiyə edildi.

**İclasa sədrlik edən:** **İ.İsayev**

**Katib:** **T.Babayev**